**AUDİT 2024, 3 (45), səh. 38-49.**
**AUDIT 2024, 3 (45), pp. 38-49.**
**АУДИТ 2024, 3 (45), стр. 38-49.**

**DOI: 10.59610/bbu3.2024.3.4**

*Sadıqov Rahim Fərahim oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Bakı Biznes Universiteti,*
*Email: s.rahim72@mail.ru*
*© Sadıqov R.F., 2024*

**UOT: 332;338**
**JEL: Q1;Q2;Q3;R1;R5**

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR-SƏNAYE PARKLARININ FORMALAŞMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** - işğaldan azad edilmiş ərazilərdə aqrar-sənaye parklarının formalaşdırılması yollarını tədqiq etmək və inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – elmi araşdırmada təhlil və sintez metodundan istifadə edilib.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - işğaldan azad edilmiş ərazilərin iqtisadi-coğrafi imkanlarından istifadə etməklə, aqrar və emal müəssisələrin fəaliyyətini təmin etmək, sənaye məhsulları istehsal etməklə ölkənin iqtisadi inkişafına töhfə verməkdən ibarətdir.

**Tədqiqatın nəticələri -** işğaldan azad edilmiş ərazilərdə aqrar-sənaye parkları yaratmaqla ölkənin və regionun iqtisadi inkişafına töhfə vermək və həmin ərazidə əhalinin məşğulluğunu təmin etməkdən ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - aqrar və emal müəsssisələrinin iqtisadi və coğrafi birliyinin əsasında sənaye və aqrar zonaların maliyyə-təsərrüfat fəaliyyətinin sintezinə nail olmaqdan, bu sintezin nəticəsində yeni idarəetmə sistemini formalaşdırmaqdan ibarətdir.

**Açar sözlər:** işğal, ərazi, sənaye, park, emal, idarəetmə, iqtisadi rayon, kənd təsərrüfatı.

## G İ R İ Ş

Otuz ilə yaxın müddət ərzində vətənimizin tarixən əlverişli və münbit təbii-coğrafi şəraitə, habelə təbii sərvətlərə və resurslara malik əraziləri işğal altında olmuşdur. Ərazilərimizin erməni qəsbkarları tərəfindən işğal olunması həmin regionların iqtisadiyyatına, coğrafiyasına, sosial və demoqrafik mühitinin inkişafına böyük zərbə vurmuşdur. Həmin ərazilərdə iqtisadiyyat və təsərrüfat sahələri məhv edilmiş, sənaye müəssisələri və aqrar təsərrüfat sahələri tamamilə dağıdılmış, ərazinin ekologiyasına böyük zərər dəymişdir.

Bu hadisələr nəticəsində həmvətənlərimiz doğma torpaqlarından, ev-eşiklərindən didərgin düşmüş, çox böyük sosial problemlərə duçar olmuşlar. Doğma yurdlarından qovulmuş həmvətənlərimiz daimi yaşayış yerlərindən və ev-eşiklərindən məhrum olaraq respublikanın bir sıra şəhər və rayonlarında məcburi köçkün kimi məskunlaşmışlar. Ümummilli Liderimiz Heydər Əliyevin və möhtərəm prezidentimiz İlham Əliyevin uzaqgörən siyasətlərinin və sosial-iqtisadi strategiyalarının sayəsində məcburi köçkün düşmüş həmvətənlərimiz məskunlaşdıqları rayon və kəndlərdə əkin yerləri, qışlaq və yaylaq sahələri ilə, müvəqqəti təsərrüfat yerləri ilə təmin olunmuşlar.

Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti və şəhidlərimizin qanı hesabına düşmən tapdağı altında qalan torpaqlarımız ikinci vətən müharibəsində işğaldan azad edildi. İşğaldan azad edilmiş ərazilərdə yeni və innovativ texnologiyalara əsaslanan sənaye və istehsal

AUDİT 2024, 3 (45), səh. 38-49.
AUDIT 2024, 3 (45), pp. 38-49.
АУДИТ 2024, 3 (45), стр. 38-49.

kooperasiyalarının, xidmət müəssisələrinin yaradılması, emal və aqrar sahədə sahibkarlıq subyektlərinin formalaşması və inkişafı dövlətimizin əsas iqtisadi prioritetlərindən biridir. İqtisadi təsərrüfat subyektlərinin formalaşması, güzəştli vergi və maliyyə siyasətinin yürüdülməsi, idarəetmənin modern tipli təşkilati strukturlarının formalaşdırılması regionda iqtisadiyyatın bərpası və inkişafında böyük rol oynayır. Bu məqsədlə həmin ərazilərdə regionun sosial-iqtisadi infrastrukturunun formalaşdırılmasına, sənaye parkları və məhəllələrinin, aqroparkların yaradılmasına, yeni iqtisadi mexanizmlərin tətbiqinə önəm veririk.

**İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpasının elmi-nəzəri əsasları**

Müzəffər dövlət başçısının cəsarətli siyasi və hərbi addımları sayəsində, vətənimizin igid oğullarının əzmkar və rəşadətli mübarizəsi nəticəsində torpaqlarımız erməni işğalından azad olunmuşdur. Torpaqlarımızın erməni işğalından və düşmən tapdağından azad olunması həmin ərazilərin yenidən tikintisi, bərpası və abadlaşdırılması məqsədi ilə dövlətimizin, cəmiyyətimizin, bütün ziyalılarımızın, vətəndaşlarımızın, o cümlədən bizim hər birimizin qarşısında vacib və müqəddəs bir missiya qoyur. Hər birimiz erməni işğalından azad edilmiş ərazilərin bərpası və inkişafı üçün əlimizdən gələni əsirgəməməli və səylərimizi, bacarıqlarımızı səfərbər etməliyik.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilər regionun iqtisadi potensialı, təbii eytiyatları və resursları baxımından çox zəngindir. Bu baxımdan həmin regionda idarəetmənin təşkilati mexanizmlərinin araşdırılması, sənaye sahələrinin və aqrar sahənin inkişaf etdirilməsi üçün elmi və praktik baxışların formalaşdırılması və tətbiqi məsələləri olduqca vacibdir. Bu məqsədlə işğaldan azad edilmiş ərazilərin mövcud regional-coğrafi potensialı araşdırılmalı, insanların tarixən malik olduqları məşğuliyyət imkanları öyrənilməli, sənayenin perspektiv və strateji inkişaf sahələri müəyyən edilməli, həmin ərazinin sosial-iqtisadi inkişafına nail olunmasının əsas istiqamətləri tədqiq olunmalıdır.

Professor Nazim Müzəffərli Azərbaycanın post konflikt ərazilərinin bərpası ilə əlaqədar təqdim etdiyi tədqiqat əsərində həmin ərazilərin işğalaqədərki vəziyyətini araşdırmış, konfliktsonrası bərpa işləri ilə əlaqədar tədqiqatlar aparmışdır. O, tədqiqatında idarəetmənin təkmilləşdirilməsi və risklərin idarə edilməsi məsələlərini tədqiq etmiş, bərpa işlərinin planlaşdırılması və icrasının həyata keçirilməsi ilə əlaqədar dövlət idarəetmə orqanının və onun regional strukturlarının yaradılmasını təklif etmişdir. Professor Nazim Müzəffərlinin fikrinə əsaslanaraq deyə bilərik ki, bu cür strukturların yaradılması regionda bərpa işlərinin çevik və davamlı formada həyata keçirilməsində yüksək səmərə verə bilər [4, səh 46].

Həmin ərazilərdə yeni və innovativ texnologiyalara əsaslanan sənaye və istehsal kooperasiyalarının, xidmət müəssisələrinin yaradılması, emal və aqrar sahədə sahibkarlıq subyektlərinin formalaşması və inkişafı, güzəştli vergi və maliyyə siyasətinin yürüdülməsi, idarəetmənin modern tipli təşkilati strukturlarının formalaşdırılması regionda iqtisadiyyatın bərpası və inkişafında böyük rol oynayar. Bu məqsədlə həmin ərazilərdə regionun sosial-iqtisadi infrastrukturunun formalaşdırılmasına, sənaye parkları və məhəllələrinin, aqroparkların yaradılmasına, yeni iqtisadi mexanizmlərin tətbiqinə önəm veririk.

Azərbaycan iqtisadçıları işğaldan azad edilmiş ərazilərdə milli iqtisadiyyatın bərpası və inkişafı ilə əlaqədar bir sıra tədqiqatlar aparmışlar. Prof. Tofiq Hüseynovun Azərbaycanın milli iqtisadi inkişaf modellərinə dair araşdırmaları Azərbaycanın bu günü və sabahı, habelə işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın bərpası və inkişafına dair fikirlərin nəzəri və elmi-praktik bazası kimi dəyərləndirilir [10, səh 78].

Prof. İslam İbrahimovun “Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri” mövzusunda yazdığı monoqrafiya regionda aqrar sahənin və bu sahədən töhfə alan

**AUDİT 2024, 3 (45), səh. 38-49.**
**AUDIT 2024, 3 (45), pp. 38-49.**
**АУДИТ 2024, 3 (45), стр. 38-49.**

sahələrin bərpasının və inkişafının əsas prioritetlərinə həsr olunmuşdur [3, səh 46]. Müəllif regionun maddi ehtiyatlarını, iqtisadi potensialını, təşkilati mexanizmlərini tədqiq etmiş, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin, habelə ətraf rayonların heyvandarlıq və bitkiçilik sahəsinə, mal-qara, texnika və digər vəsaitlərə vurulan maddi ziyanı konkret və əsaslı faktlarla şərh etmişdir. Monoqrafiyada azad edilmiş ərazilərdə kənd təsərrüfatının perspektiv və strateji inkişaf sahələri tədqiq edilmiş, ərazinin iqtisadi inkişafına nail olmaq üçün elmi təkliflər irəli sürülmüşdür. Düşünürük ki, bu cür tədqiqat əsərləri ölkəmizin iqtisadi inkişafının bütün tərəflərinə öz səmərəsini verə bilər. Azərbaycan Respublikası özünün iqtisadi potensialı və imkanlarına görə perspektiv inkişafa meyilli dövlət olmaqla, ərazilərdə, habelə milli iqtisadiyyatın mövcud sahələrində strateji inkişaf meyillərini daim artırmağa qadirdir.

Prof. Tərbiz Əliyev "Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatının bərpası" kitabında Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının faydalı qazıntı, enerji, su, xammal ehtiyatlarından səmərəli istifadə imkanlarını sistemləşdirmişdir. Monoqrafiyada həmin rayonların iqtisadi və sosial inkişafının əsas cəhətləri və istiqamətləri təsvir edilmiş, son bir il müddət ərzində regionda görülmüş işlərdən bəhs etmişdir. Bundan başqa, kitabda yeni aqroparkların, sənaye-xidmət məhəllələrinin, müştərək müəssisələrin, texnoparkların, klasterlərin və digər innovativ sənaye və kənd təsərrüfatı infrastrukturların, sahibkarlıq obyektlərinin təşkili və inkişafının əsas istiqamətləri müəyyən olunmuş və əsaslandırılmışdır [1, səh 23].

Düşünürük ki, prof. Tərbiz Əliyevin təqdim etdiyi layihə və işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın, sənaye sahələrinin bərpası ilə əlaqədar fikirləri praktiki fəaliyyətin icrasında səmərəli nəticələr verə bilər.

Professor Akif Musayevin rəhbərlik etdiyi Postkonflikt Ərazilərin Bərpası Elmi Mərkəzi aşağıdakı istiqamətlərdə araşdırmaların aparılmasını və ölkənin regional və milli iqtisadiyyatına bu sahədə töhfələr verəcəyini iddia edir [12].

– konflikt zonasında bərpa işlərinin ümumi prinsiplərinin hazırlanması;

– ərazilərin işğala-qədərki və işğaldan sonrakı vəziyyətinin müəyyənləşdirilməsi və müqayisəli qiymətləndirilməsi;

– ərazilərdə dövlət idarəetmə sisteminin, özünüidarəetmənin xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– ərazilərdə vətəndaşlar üçün həyat təminatı sisteminin (sosial fondun, su, enerji təminatının, qaz təchizatının) qurulması, əhalinin yerləşdirilməsi;

– infrastrukturun (mülki infrastrukturun, telekommunikasiyaların, nəqliyyat infrastrukturunun, sosial obyektlərin) yenidən qurulması;

– iqtisadiyyatın bərpası və inkişafı üzrə tədbirlərin, daxili və beynəlxalq səviyyədə müqayisəli üstün sahələrin müəyyənləşdirilməsi;

– ərazidə beynəlxalq maliyyə institutları ilə qarşılıqlı əməkdaşlıq imkanlarının müəyyən edilməsi və qiymətləndirilməsi;

– baş verə biləcək daxili və xarici risklərin müəyyənləşdirilməsi və idarə olunması.

Biz də iqtisadi sahədə tədqiqatlar aparan mütəxəssis kimi düşmən işğalından azad olunmuş ərazilərimizdə iqtisadi infrastrukturların bərpası, sahibkarlığın formalaşması və iqtisadi inkişafın təmin olunması baxımından bu sahədə araşdırmalar aparılmasını zəruri hesab etdik. Bu məqsədlə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının mövcud coğrafi potensialını araşdırmaqla, tarixən malik olduqları iqtisadi və təsərrüfatçılıq məşğuliyyətlərini nəzərə almaqla, həmin regionda iqtisadiyyatın bərpasına və inkişafına öz mənəvi töhfələrimizi verməyi qərarlaşdırdıq.

AUDİT 2024, 3 (45), səh. 38-49.
AUDIT 2024, 3 (45), pp. 38-49.
АУДИТ 2024, 3 (45), стр. 38-49.

**İşğaldan azad olunan ərazilərimizin iqtisadi və təsərrüfatçılıq sahələrinin formalaşması istiqamətləri**

Araşdırmalarımız işğaldan qurtaran ərazilərimizin iqtisadi və təsərrüfatçılıq sahələrinin bərpasını əhatə edir. Həmin ərazilər ölkəmizin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarından ibarətdir. Bu məqsədlə həmin rayonlarda həm iqtisadi, həm də aqrar sahədə inkişaf məsələlərini hədəf götürməklə bir sıra məsələləri araşdırmışıq.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları sənaye və aqrar komplekslərinin və parklarının yaradılması üçün zəngin təbii-iqtisadi mühit vardır. Regionun təbii mühiti aqrar sahənin inkişafı üçün əlverişli hesab edilir [14].

Bitkiçilik, heyvandarlıq sahəsinin formalaşdırılması və inkişafı ərazi üçün daha əhəmiyyətli hesab olunur. Regionda mövcud olan təbii sərvətlər imkan verir ki, ərazidə milli iqtisadiyyatın bir neçə sahəsi üzrə hasilat və emal sahələri yaradılsın. Ərazidə mövcud regional, təbii və coğrafi mühit amilləri müxtəlif sənaye sahələrinin yaradılmasına imkan verir. Regionda mövcud olan təbii sərvət və resurslardan səmərəli istifadə olunmasının 1-ci fazasında aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

– təbii sərvətlərdən səmərəli istifadə olunması;
– torpaqların yararlı hala salınması və faydalılıq səviyyəsinin artırılması;
– faydalı torpaq ehtiyatlarından səmərəli istifadə olunması;
– dağlıq və dağətəyi zonalarda torpaqların becərilməyə cəlb edilməsi;
– heyvandarlıq sahəsinin bərpa olunması və inkişafı.

Hesab edirik ki, işğaldan azad edilmiş ərazilərdə mövcud ehtiyatlardan yuxarıda qeyd olunan istiqamətlərdə istifadə edilməsi daha çox məqsədəuyğundur. Lakin bu cür məsələlərin icrası bizə milli iqtisadiyyatın, habelə onun müxtəlif sahələrinin bərpası və inkişafı sahəsində perspektivlər açacaqdır [3, səh 112].

Həmin perspektivlər tərəfimizdən aşağıdakılar hesab olunur:

– təbii sərvətlərdən səmərəli istifadə etmək məqsədi ilə, bu sahədə emal sənayesinin formalaşdırılması və inkişafına nail olmaq. Bundan ötrü qızıl, sink, mis filizlərinin emalı sənayesinin yaradılması, onların xammal kimi yox, hazır məhsul kimi ixracını təmin etmək lazımdır;

– ərazilərin torpaq ehtiyatlarından daha səmərəli istifadə etmək üçün torpaq ehtiyatlarını inventarlaşdırılmalı, onun keyfiyyət və kəmiyyət göstəriciləri müəyyənləşdirilməli, deqradasiyaya uğramış və çirklənmiş torpaqların sahəsi müəyyən olunmalı, onların istifadəyə yararlı hala salınması üçün müvafiq layihələr hazırlanmalıdır;

– ərazilərdə bitkiçilik sahəsində dağlıq və dağətəyi zonalarda torpaqların becərilməyə cəlb edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və onların emalına müvafiq investisiya qoyuluşlarının təmin olunması, aqrar-sənaye komplekslərinin formalaşdırılması, həmin sahənin yeni texnika və texnologiya ilə təchizatı məsələləri həll edilməlidir;

– heyvandarlıq sahəsinin bərpa olunması və inkişafına nail olmaqla, quşçuluq təsərrüfatının, süd məhsulları və məmulatlarının emalı sahəsinin, toxuculuq fabriklərinin, dəri emalı sənayesinin yaradılması mümkündür.

İşğaldan azad edilmiş ərazilərdə hasilat sənayesinin bərpa edilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı aqrar-yeyinti sənayesinin formalaşması və inkişafına təsir edəcəkdir. Bu proses həmçinin hasilat sənayesinin metallurgiya sənayesi ilə inteqrasiyasının gücləndirilməsinə, emal sənayesinin, habelə milli iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin balanslaşdırılmış inkişafına müsbət təsirini göstərəcəkdir.

Erməni işğalından azad olunmuş ərazilərdə sənaye sahəsinin formalaşdırılması və inkişafı modern idarəetmə mexanizminin tətbiqini tələb edir. Həmin ərazilərdə sənaye parklarının

AUDİT 2024, 3 (45), səh. 38-49.
AUDIT 2024, 3 (45), pp. 38-49.
АУДИТ 2024, 3 (45), стр. 38-49.

formalaşdırılması və inkişafı məqsədli proqramların tətbiqini zəruri edir. Ərazilərin azad edilməsindən sonra biz aqrar təsərrüfatın emal sənayesi ilə inteqrasiyasına xüsusi diqqət yetirir, yeyinti sənayesinin kompleks inkişafına önəm veririk. Bu məqsədlə ərazilərdə intellektual mülkiyyətin formalaşmasına, iqtisadiyyatda innovasiya sistemlərinin tətbiqinə, emal sənayesində yeni texnologiyalardan istifadəyə şərait yaradılmasını vacib hesab edirik. Bunun üçün ölkəmizdə ideya və biliklərin istehsalçıları olan vençur müəssisələr şəbəkəsinin yaradılmasını, elmi-tədqiqat müəssisələrinin məhsuldarlıq səviyyəsinin artırılmasını, istehsal və xidmət müəssisələrinə dövlətin maliyyə dəstəyinin artırılmasını vacib bilirik.

**Aqrar-sənaye parklarının formalaşmasının regional xüsusiyyətləri**

İşğaldan azad edilmiş ərazilər ölkənin iki iqtisadi rayonunu əhatə edir: Şərqi Zəngəzur və Qarabağ. Ərazi geniş təbii ehtiyatlarla zəngin olmaqla, milli iqtisadiyyatın inkişafı üçün əlverişli çoğrafi mühit kimi dəyərləndirilir.

İlk öncə Şərqi Zəngəzur iqtisadi rayonunun iqtisadi və aqrar məsələlərinin araşdırılmasına diqqət yetirək. Şərqi Zəngəzur iqtisadi rayonu Kəlbəcər, Laçın, Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarını əhatə edir. İqtisadi rayonun relyefi, əsasən, dağlıqdır. Rayonun əsas hissəsini Qarabağ yaylası tutur. Bu məqsədlə də rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq sahəsi təşkil etmişdir. Deyə bilərik ki, qoyunçuluq, maldarlıq, arıçılıq, baramaçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, taxılçılıq kənd təsərrüfatının inkişaf etmiş sahələrindən olmuşdur. Zənqilan, Qubadlı inzibatı rayonlarında və çayların subasarlarında əkinçilik üçün əlverişli şərait vardır. Region Araz çayının dərəsinə keçərək düzənliklərə tərəf uzanır. Bu imkanlar suvarma sistemlərinin formalaşması üçün əlverişli amillərdir.

Lakin ərazinin dağlıq relyefi əkinçilik üçün şəraiti məhdudlaşdırır. Sovetlər dövründə iqtisadi rayonda kənd təsərrüfatına yararlı torpaq fondu 157 min hektar təşkil edirdi. Bunun yalnız 26 min hektara yaxını, yəni, təqribən, 17%-i şum yeri kimi istifadə olunurdu. Həmin sahənin çoxu dənli, dənli-paxlalı və yem bitkilərinin istehsalı üçün nəzərdə tutulurdu. Əkin sahəsinin 4%-ni tütün plantasiyaları təşkil edirdi. Otlaqlar isə yararlı torpaqların 71%-ni təşkil edirdi. Sovetlər dövründə iqtisadi rayon qoyunçuluq sahəsi üzrə, əsasən, ətlik və yunluq sahələri üzrə ixtisaslaşmışdır. Arıçılıq və baramaçılıq da rayonun əsas məşğulluq sahəsi kimi inkişaf etmişdir [15].

Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən ən böyük rayon Kəlbəcərdir. Əslində, Kəlbəcər rayonu ərazi baxımından nəinki regionun, hətta ölkənin ən böyük rayonudur. Kəlbəcər rayonu, əsasən, dağlıq ərazi olduğu üçün burada da heyvandarlığın inkişafı üçün böyük imkanlar vardır. Rayonda mövcud təbii yaylaqlar və otlaq sahələri heyvandarlığın formalaşması və inkişafı üçün geniş imkanlar açır. Rayonda mövcud təbii sərvətlər emal və hasilat sənayesi üçün mühit amilləridir.

Regionun ən böyük kənd təsərrüfat rayonlarından biri Laçındır. Sovetlər dönəmində Laçın rayonunun iqtisadiyyatında əsas yeri heyvandarlıq sahəsi tutmuşdur. Həmin dövrdə kənd təsərrüfatına yararlı torpaqlar 76 min hektar olmuşdur. Kənd təsərrüfatına yararlı torpaqlardan 11,1 min hektarı şum yerlərindən, 0,3 min hektarı çox-illik bitkilər 5,2 min hektarı biçənəklər, 56,7 min hektarı otlaqlar üçün, yerdə qalan ərazilər isə dincə qoyulmuş torpaqlar kimi istifadə olunurdu [14].

Laçın rayonu həmçinin faydalı qazıntılarla zəngin idi. Rayon faydalı qazıntılar, əsasən, tikinti materialları sahəsində əhəmiyyətli yer tutur. Rayonda Şorbulaq və Ağyataq civə ehtiyatları ərazidə sənayenin inkişafı üçün geniş imkanlar açır. Mineral bulaqların zəngin ehtiyatları burada mineral su istehsalı üçün imkanlar yaradır. Ümumilikdə götürdükdə Şərqi Zəngəzur iqtisadi rayon ərazisində təbii sərvətlər və müxtəlif faydalı qazıntılar üzrə ehtiyatlar (qızıl, obsidan, perlit, civə, xromit, mərmər, tikinti daşları koral və s.) aşağıdakı cədvəldə əks etdirilmişdir.

AUDİT 2024, 3 (45), səh. 38-49.
AUDIT 2024, 3 (45), pp. 38-49.
АУДИТ 2024, 3 (45), стр. 38-49.

*Cədvəl 1.*

**Şərqi Zəngəzur iqtisadi rayonunun təbii sərvətlərinə uyğun formalaşdırılması mümkün olan sənaye sahəsi**

| İqtisadi rayon | Təbii sərvətlər | Uyğun sənaye sahəsi |
|---|---|---|
| Şərqi Zəngəzur iqtisadi rayonu | Mərmər | Tikinti materialları sənayesi |
| | Koral, tikinti daşları | |
| | Perlit | |
| | Obsidian | |
| | Civə | Kimya sənayesi |
| | Xromit | |
| | Qızıl filizi | Metallurgiya sənayesi |
| | Mis filizi | |
| | İstisu su mənbəyi | Qida sənayesi |
| | Minkənd su mənbəyi | |
| | Tutqunçay su mənbəyi | |

***Mənbə: müəllif tərəfindən hazırlanmışdır.***

Regionda İstisu, Tutqunçay, Minkənd bulaqlarının mövcudluğu kurort sahəsinin inkişafı üçün əhəmiyyətlidir. Həmin ərazinin dağlıq sahələri, meşə örtüyü, iqlim şəraiti regiondan kurort-rekreasiya məqsədləri üçün istifadə etməyə imkan verir. Mineral bulaqların zənginliyi mineral suların qablaşdırılması ilə əlaqədar emal müəssisələrinin yaradılması üçün əhəmiyyətlidir.

Yuxarıdakı cədvəldən göründüyü kimi, Şərqi Zəngəzur iqtisadi rayonunda qida sənayesi, metallurgiya sənayesi, tikinti materialları və kimya məhsulları emalı sahələrini inşa etmək əlverişlidir. Tikinti materialları və metallurgiya sənayesi üçün xammalı hər iki iqtisadi rayonda mövcud olduğu üçün həmin sahələrin yaradılması daha çox əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, istər kimya, istərsə də metallurgiya sahəsi tikinti materialları sənayesi üçün mənbə hesab olunur. Bundan sonra on illərlə doğma Qarabağımızın bərpa və tikinti işlərini proqnozlaşdırsaq, həmin sahələrin məhsullarının bu kimi tədbirlərin icrası üçün hazır məhsul kimi istifadə olunacağı qeyd şərtsizdir.

Kəlbəcər rayonu zəngin faydalı qazıntı yataqları ilə fərqlənir. Rayon ərazisində qeyri-filiz və filiz faydalı qazıntıları vardır. Kəlbəcər rayonunda qızıl, volfram, xromit, mis, qurğuşun, molibden, sink, sürmə, civə, asbest, mərgümüş, perlit, mineral boyalar, travertin, üzlük daş yataqları vardır. Ağduzdağ və Söyüdlü yataqları, əsasən sənaye əhəmiyyəti daşıyır və həmin yataqların bazasında qızıl sənayesini təşkil etmək mümkündür.

Qarabağ iqtisadi rayonu aqrar regiondur. Qarabağ iqtisadi rayonu Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edir. Rayonun relyefi dağlıq olmaqla, Qarabağ və Mil düzlərinədək uzanır. İqtisadi rayonda çaylar, təbii göllər ərazinin təsərrüfat sahələri üçün su və enerji mənbəyini təşkil edir [15].

Sovetlər dönəmində regionda şərabçılıq, süd emalı, ipəkçilik, mədən, ağac emalı sahələri daha çox inkişaf etmişdir. Həmin dövrdə ipək və yeyinti sənayesi qurulmuş, bu sahə ipək parça və xam parça istehsalı rayonun ümumi istehsalının yarıdan çoxunu təşkil edirdi. Rayonda iri şərab zavodları və süd kombinatları fəaliyyət göstərirdi. Rayon şərab və konyak istehsalı üzrə ixtisaslaşmışdı. Habelə rayonda elektrik lampalarının istehsalı aparıcı sahələrdən biri idi. Sənaye sahəsində taxta-şalban istehsalı, mebel emalı əhəmiyyətli yer tuturdu.

AUDİT 2024, 3 (45), səh. 38-49.
AUDIT 2024, 3 (45), pp. 38-49.
АУДИТ 2024, 3 (45), стр. 38-49.

Qarabağ iqtisadi rayonunun əsas təbii sərvət ehtiyatına Mehmanə yatağında polimetal filizləri, mərmər, gips, sement xammalı, əhəng daşı, tikinti daşı və sair sərvətlər daxildir. Neft, təbii qaz, polimetal filizləri həmin ərazidə kimya sənayesinin yaradılmasına imkan verir. Ərazidə mis və sink filizləri də mövcuddur. Mərmər, sement xammalı, tikinti daşı isə tikinti materialları istehsalı üçün əlverişlidir. Qeyd edilənləri nəzərə alaraq Qarabağ iqtisadi rayonununda sənayenin aşağıdakı sahələri üzrə hasilat və emal müəssisələrini təşkil etmək mümkündür:

1. Metallurgiya sənayesi.
2. Kimya sənayesi.
3. Tikinti materiallarının emalı.

Qeyd edilən sənaye müəssisələrinin formalaşmasında aşağıdakı təbii sərvətlərin hasilatı mühüm rol oynayacaqdır.

*Cədvəl 2.*

**Qarabağ iqtisadi rayonunun təbii sərvətlərinə uyğun formalaşdırılması mümkün olan sənaye sahəsi**

| İqtisadi rayon | Təbii sərvətlər | Uyğun sənaye sahəsi |
|---|---|---|
| Qarabağ iqtisadi rayonu | Mərmər | Tikinti materialları sənayesi |
| | Sement xammalı | |
| | Tikinti daşı | |
| | Polimetal filizi | Kimya sənayesi |
| | Mis filizi | Metallurgiya sənayesi |
| | Sink filizi | |

***Mənbə: müəllif tərəfindən hazırlanmışdır.***

Qarabağ iqtisadi rayonununda iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edir. İşğaldan əvvəlki dövrlərdə iqtisadi rayonda yararlı torpaqların sahəsi 203,2 min hektar təşkil etmişdir. Bunlardan 75,4 min hektar şum, 20,2 min hektar çoxillik bitkilər, 4,1 min hektar biçənəklər, yerdə qalan hissə isə otlaq sahələri kimi istifadə olunmuşdur. Həmin dövrdə şərabçılıq üçün üzüm istehsalına daha geniş yer ayrılmış, kənd təsərrüfatında meyvə bağlarına üstünlük verilmiş, heyvandarlıq üçün yem bazaları fəaliyyət göstərmişdir.

Sovetlər dövründə rayonda kənd təsərrüfatı məhsulları istehsalının yarıdan çoxunu dənli bitkilər, yəni: buğda və arpa istehsalı təşkil edirdi. Bundan başqa, texniki bitkilərdən pambıq və tütün, tərəvəz bitkilərindən kartof və bostan istehsalı həyata keçirilirdi. Heyvandarlıq sahəsində inək, camış, qoyun, donuz, quş növləri bəslənirdi, süd və süd məhsulları, yumurta, barama istehsalı üstünlük təşkil edirdi. Həmin dövrdə Qarabağ iqtisadi rayonunun ərazisində donuzçuluq sahəsi də inkişaf etmişdir. Bu sahədə ət istehsalına görə iqtisadi rayon respublika üzrə qabaqcıl yerləri tuturdu. Arıçılıq da rayonun aparıcı sahələrindən biri olmuşdur [15].

İşğaldan azad olduqdan sonra iqtisadi rayonda kənd təsərrüfatının bərpası və inkişafı prioritet məsələlərdən biridir. Regionda kənd təsərrüfatı üçün münbit şəraitin olması aqrar-sənaye parklarının formalaşması və inkişaf etdirilməsi üçün imkanlar yaradır. Regionun kənd təsərrüfatı üzrə əsas sahələri birillik bitkilərin istehsalı təşkil edir. Yəni həmin ərazidə taxıl, şəkər çuğunduru, tütün, pambıq və sair bu kimi bitkilərin əkilməsi nəzərdə tutulmuşdur. Bundan başqa, üzümçülük, meyvəçilik də regionun əsas sahələri olmuşdur. Regionda barama istehsalı geniş vüsət almışdı. Bu məqsədlə həmin ərazidə tut bağları salınmışdır.

Regionda heyvandarlıq sahəsi geniş inkişaf etmişdir. Heyvandarlıq, əsasən, ətlik və süd məhsullarının istehsalı üzrə inkişaf etmişdir. Bundan başqa, region yun məhsulunun istehsalı ilə də ixtisaslaşmışdır. Bu sahələr regionda ət konservlərinin istehsalı, toxuculuq və yüngül

**AUDİT 2024, 3 (45), səh. 38-49.**
**AUDIT 2024, 3 (45), pp. 38-49.**
**АУДИТ 2024, 3 (45), стр. 38-49.**

sənaye üçün xanmal mənbələri hesab edilir. Bu cür emal sahələrinin yaradılması regionda aqrar-sənaye parklarının inkişafına müsbət təsir göstərə bilər.

Qarabağ iqtisadi regionuna daxil olan Ağdam və Füzuli rayonlarının bir hissəsi düşmən tapdağı altında qalmışdır. Ağdam və Füzuli rayonları şəkər çuğunurunun istehsalının həcminə görə respublikada aparıcı rayonlardan hesab edilir. Tərtər rayonu da çuğundur istehsalı üzrə respublikada fərqlənən rayonlardan biri olmuşdur. Bu sahə regionda şəkər zavodunun yaradılması və inkişafı üçün amil ola bilər.

Ağdam rayonu tərəvəz istehsalı üzrə 2018-ci ildə (102578 ton) ölkənin rayonları içərisində ikinci nəticəni göstərmişdir. Növbəti illərdə isə Ağdam rayonu tərəvəz məhsulu istehsalında Respublika üzrə 8-ci nəticəni göstərmişdir. Füzuli rayonu da tərəvəz istehsalında yüksək nəticələr göstərir. Bu onu göstərir ki, regionda tərəvəz istehsalına daha çox diqqət göstərməklə, konserv məmulatlarının istehsal sahələrini də yaratmaq olar [15].

Aparılan araşdırmalardan belə bir nəticəyə gəlmişik ki, Qarabağ iqtisadi rayonunda aqrar-sənaye parklarını yaratmaq mümkündür. Aqrar-sənaye parkları dedikdə bir-biri ilə sıx əlaqəli fəaliyyət göstərən sənaye və kənd təsərrüfatı müəssisələrinin birliyi, kənd təsərrüfatı sahəsi üçün texnika, texnologiya istehsal edən, eləcə də kənd təsərrüfatı məhsullarından sənaye məhsulları hasil edən istehsal sahələri başa düşülür. Qarabağ iqtisadi rayonu kənd təsərrüfatı məhsullarının becərilməsi, emalı və saxlanılması üçün geniş təbii və coğrafi imkanlara malik olduğu üçün rayonda aqrar-sənaye sahələrinin yaradılması mümkündür.

Aşağıdakı şəkildə təklif etdiyimiz kimi Qarabağ iqtisadi rayonu altı əlaqədar sahələri özündə birləşdirməlidir.

***Sxem 1.***

**Qarabağ iqtisadi rayonunda aqrar-sənaye parklarının sahə strukturu.**
**(müəllif tərəfindən hazırlanmışdır)**




Aqrar-sənaye parklarının yaradılması ərazini respublikamızın digər iqtisadi rayonları ilə əlaqələrinin gücləndirilməsinə, Türkiyə, İran və Azərbaycan arasında yüngül və yeyinti sənaye məhsullarının bir başa mübadiləsini təmin etməklə, beynəlxalq ticarət əlaqələrini və ölkənin ixrac potensialını artıra bilər.

Qarabağ iqtisadi rayonunda aqrar-sənaye parklarının tərkibində yaradılması nəzərdə tutulan istehsal və xidmət müəssisələrinin təyinatını aşağıdakı kimi nəzərdə tuturuq:

– Kənd təsərrüfatı müəssisələri. Kənd təsərrüfatı sahəsi ölkənin məhsul istehsalı kompleksinin əsasını və mərkəzi sahəsini təşkil edir. Kənd təsərrüfatının əsas məqsədlərindən biri də sənaye sahələri üçün xammal-material təminatını həyata keçirməkdir. Bura fermer təsərrüfatlarını, aqro parkları, fərdi və şəxsi təsərrüfat sahələrini aid edə bilərik.

**AUDİT 2024, 3 (45), səh. 38-49.**
**AUDIT 2024, 3 (45), pp. 38-49.**
**АУДИТ 2024, 3 (45), стр. 38-49.**

– Maşın, mexanizm və material ehtiyat parkları. Bu tip sahə kənd təsərrüfatı müəssisələrini texniki və material ehtiyatları ilə təchiz edir. Bura traktor, maşınqayırma sənayesini və mineral gübrə, kimyəvi dərman istehsalı sahələrini aid etmək olar.

– Sənaye sahəsi. Kompleksin bu sahəsində kənd təsərrüfatı məhsullarını xammal kimi emal edən yeyinti və yüngül sənaye istehsalı, o cümlədən təbii şirələr, meyvə cemləri, qablaşdırılmış mineral sular, konserv məmulatları, süd məmulatları, trikotaj məhsulları, tekstil məmulatları, meşə və ya ağac məmulatları istehsalı nəzərdə tutulur. Bura qida və yeyinti məhsulları zavodlarını, toxuculuq və trikotaj fabriklərini, mebel və ağac məmulatları fabriklərini, o cümlədən bu emal sahələrini özündə birləşdirən sənaye məhəllələrini, sənaye parklarını, klastrları aid edə bilərik.

– Nəqliyyat və logistik sahələri. Bu sahə sənaye aqrar kompleksin istər ilkin fazasında mövcud olan kənd təsərrüfatı məhsullarının, istərsə də kompleksin növbəti fazasında yerləşən sənaye məhsullarının sahələrarası nəqli, tədarükü, əlaqədar sahələrə və ya müəssisələrə çatdırılması ilə əlaqədar fəaliyyət sistemini özündə əks etdirəcəkdir. Bura beynəlxalq logistik mərkəzləri, avtobazaları, xammal və ya məhsul tədarükü müəssisələrini, topdansatış və ya pərakəndə ticarət bazalarını aid edə bilərik.

– Sosial və elmi-tədqiqat xidmət sahələri. Bu bölmə aqrar-sənaye parkı üçün yeni ideyaların formalaşmasını, aqrar və sənaye sahələrinə innovasiyaların, kəşflərin, ixtiraların təqdim edilməsini, elmi araşdırmaların aparılmasını özündə birləşdirir. Bura elmi-tədqiqat müəssisələri və ya mərkəzlərini, nəzdində tədqiqat bölmələri olan universitetləri, təcrübə-konstruktor bürolarını, aqrar və sənaye inkubasiya mərkəzlərini, innovasiya mərkəzlərini aid etmək olar.

– Aqrar-sənaye parkının enerji-resurs təminatı sahəsi. Bu sahə kompleksi elektrik və istilik enerjisi yanacaq və su ilə fasiləsiz olaraq təmin edilməsini nəzərdə tutacaqdır. Bura elektrik stansiyaları, yanacaq, qaz təchizatı anbar və məntəqələri, istilik stansiyaları, su hövzələri və anbarları aiddir.

Belə nəticəyə gəlirik ki, regionun iqtisadi potensialı aqrar-sənaye parklarının formalaşdırılması və inkişaf etdirilməsinə əsas verir. Lakin bu cür kompleksin və ona aid edilən sahələrin inkişafı sənaye müəssisələrinin modernləşdirilməsinin yeni mexanizmini tələb edir.

Yeni idarəetmə mexanizminin formalaşdırılması və inkişafı idarəetmənin beynəlxalq təcrübəsinin öyrənilməsini, ölkəmizdə tətbiq olunan idarəetmə sistemlərinin mövcud vəziyyətinin təhlil edilməsi və qiymətləndirilməsi ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası məqsədi ilə aşağıdakıları təklif edirik:

1. Həmvətənlərimizin işğaldan azad edilmiş tarixi ərazilərimizə qayıtmasını təmin etməklə, tarixən həmin ərazilərdə qazanılmış məşğulluq sahəsində əmək ehtiyatlarının formalaşmasına nail olmaq.

2. İdarəetmə sahəsində bacarıqlara və səriştəyə malik insan resurslarının formalaşdırılmasına nail olmaq.

3. Azad edilmiş ərazilərdə insan kapitalının sosial inkişafına ciddi diqqət yetirmək. Onu da qeyd edək ki, respublikamızda bu sahə dövlətin hər zaman diqqət mərkəzində olmaqla, insan kapitalının səmərəli idarə edilməsi, onun təkmilləşdirilməsi və inkişafının prioritetlərdən biridir.

4. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sənaye parklarının və onların idarəetmə mexanizmlərinin formalaşdırılması. Sənayenin kimya, tikinti, metallurgiya sahələrinin formalaşdırılması, aqrar sənaye kompleksinin bərpasına nail olmaq.

5. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Aqrar və Sənaye Tədqiqat Mərkəzlərini yaratmaq. Həmin mərkəzlər ali təhsil müəssisələri və tədqiqat institutlarının bazasında

**AUDİT 2024, 3 (45), səh. 38-49.**
**AUDIT 2024, 3 (45), pp. 38-49.**
**АУДИТ 2024, 3 (45), стр. 38-49.**

yaradılmaqla, onun itqisadi-aqrar tədqiqat mərkəzi kimi fəaliyyətinə nail olmaq. Həmin mərkəzin sözügedən iqtisadi rayonların ərazi-inzibati vahidlərində filiallarını yaratmaqla, həmin ərazilərdə sənaye və aqrar parklara daxil olan müəssisə və təsərrüfatlarda tədqiqat laboratoriyalarının fəaliyyətinə nail olmaq.

## YEKUN

Hazırki şəraitdə respublikada əmək bazarının mövcud tələblərinə uyğun olaraq mütəxəssis hazırlığı təhsil sahəsində qarşımızda duran prioritet məsələlərdən biridir. Strateji Yol Xəritəsində insan kapitalının keyfiyyət məsələsi ölkədə iqtisadi artımın vacib ünsürlərindən biri kimi ön plana çəkilir. Bu məqsədlə işğaldan azad olunmuş ərazilərdə insan kapitalının cəlb edilməsi, formalaşdırılması, təkmilləşdirilməsi və ondan səmərəli istifadə olunması dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir.

Dövlətin uğurlu iqtisadi-siyasi addımlarının nəticəsidir ki, ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirilir. Bu siyasət elm və sənayenin inteqrasiyasına stimul verir. Belə ki, işğaldan azad edilmiş ərazilərdə sənaye məhəllələrinin, sənaye parklarının salınması, həmin sənaye sahələrinin uğurlu fəaliyyəti üçün onların universitet və elmi-tədqiqat institutları ilə birgə fəaliyyəti olduqca əhəmiyyətlidir. Bu məqsədlə regionlarda tədqiqat mərkəzlərinin yaradılması, tədris ocaqlarının formalaşdırılması sənaye sahələrinin gələcək inkişafı üçün perspektiv yol aça bilər.

Fikrimizi yekunlaşdıraraq qeyd edə bilərik ki, ərazilərimizin işğaldan azad olunması nəinki bizim tarixi torpaqlarımıza qovuşmağımıza səbəb oldu, həmçinin tarixi torpaqlarımızda tarixi əmək məşğuliyyətlərimizi bərpa etmək və yeni iqtisadi sahələri formalaşdırmaqla; regionların və milli iqtisadiyyatımızın inkişafına imkan yaratdı. İşğaldan azad edilmiş ərazilər coğrafi-iqtisadi potensiala malik olduğundan, təbii eytiyatlar və resurslarla zəngin olduğundan sənayenin inkişafı üçün əhəmiyyət daşıyır.

Araşdırmalar göstərdi ki, ərazinin təbii mühiti və iqlim şəraiti orada kənd təsərrüfatı sahələrinin bərpası və uğurlu fəaliyyəti üçün geniş imkanlar açır. Belə qənaətə gəlirik ki, regionda idarəetmənin təşkilati mexanizmlərinin formalaşdırılması, sənaye və aqrar-sənaye parklarının yaradılması sənaye və aqrar sahənin inkişafı üçün ən optimal haldır. Aqrar-sənaye parklarının bazasında yeni aqroparkların, sənaye-xidmət məhəllələrinin, müştərək müəssisələrin və digər innovativ sənaye və kənd təsərrüfatı infrastrukturların salınması regionun sosial-iqtisadi inkişafının əsasını təşkil edəcəkdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev T. "Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatının bərpası". Bakı, 2022
2. Əliyev T.N. Heydər Əliyev dühasına iqtisadçı baxışı. Elmi red. M. Atakişiyev; ARETN İqtisadiyyat İnstitutu. Bakı: Elm və təhsil, 2023, 428 s.
3. İbrahimov İ. "Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri". Monoqrafiya, Bakı, 2022
4. Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası. Konseptual Əsaslar. Bakı, 2010
5. Səmədzadə Z. "Azərbaycan İqtisadiyyatı 100 ildə". Bakı, 2023
6. Sadıqov R.F. İstehsal müəssisələrində strateji idarəetmə və onun inkişaf istiqamətləri. BBU. Bakı. 2017.

**AUDİT 2024, 3 (45), səh. 38-49.**
**AUDIT 2024, 3 (45), pp. 38-49.**
**АУДИТ 2024, 3 (45), стр. 38-49.**

7. Sadıqov R.F. Menecmentin prinsipləri səmərəli idarəetmənin əsası kimi. Konfrans materialı, Naxçıvan, 2016

8. Sadıqov R.F. Sənaye ittifaqlarının strateji idarə edilməsi. Audit jurnalı, Bakı, 2020, səh. 123-131

9. Sadigov R.F. Modernization Aspects of Strategic Management in Industrial Companies. Scientific horizons, Vol. 24, No. 9, 2021,

10. Hüseynov T. "Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika". Monoqrafiya, Bakı, 2015

11. İşğaldan azad edilmiş şəhər və kəndlərimiz https://azertag.az/xeber/isgaldan_azad_edilmis_seher_ve_kendlerimiz-1622227

12. https://files.preslib.az/projects/zefer/az/rayonlar.pdf

13. (https://science.gov.az/az/news/open/16136)

14. https://az.wikipedia.org/wiki/Yuxar%C4%B1_Qaraba%C4%9F_iqtisadi_rayonu

15. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Milli_Ensiklopediyas%C4%B1

*Rahim Farahim Sadigov,*
*Ph.D. (Econ.), Associate Professor,*
*Baku Business University*
*Email: s.rahim72@mail.ru*
*© R.F. Sadigov, 2024*

# FORMATION AND DEVELOPMENT DIRECTIONS OF AGRICULTURAL-INDUSTRY PARKS IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION

## A B S T R A C T

**The purpose of the research** - is to study the ways of formation and determination of the development directions of agro-industrial parks in the liberated territories.

**The methodology of the research** - methods of analysis and synthesis were used in the scientific research.

**The practical importance of the research** - is to contribute to the economic development of the country by using the economic-geographical opportunities of the territories freed from occupation, ensuring the activity of agricultural and processing enterprises, and producing industrial products.

**The results of the research** - are to contribute to the economic development of the country and the region by creating agro-industrial parks in the territories freed from occupation and to ensure the employment of the population in that area.

**The originality and scientific novelty of the research -** consists in achieving a synthesis of the financial and economic activity of industrial and agrarian zones based on the economic and geographical unity of agricultural and processing enterprises, and forming a new management system as a result of this synthesis.

**Keywords:** occupation, territory, industry, park, processing, management, economic region, agriculture.

**AUDİT 2024, 3 (45), səh. 38-49.**
**AUDIT 2024, 3 (45), pp. 38-49.**
**АУДИТ 2024, 3 (45), стр. 38-49.**

*Садыгов Рагим Фарахим оглы,*
*кандидат экономических наук, доцент,*
*Бакинский Университет Бизнеса*
*Email: s.rahim72@mail.ru*
*© Садыгов Р.Ф., 2024*

# НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ АГРОПРОМЫШЛЕННЫХ ПАРКОВ НА ТЕРРИТОРИЯХ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ

## Р Е З Ю М Е

**Цель исследования** - изучение путей формирования и определения направлений развития агропромышленных парков на освобожденных от оккупации территориях.

**Методология исследования** – в исследовании использовался метод анализа и синтеза.

**Практическая значимость исследования** - содействие экономическому развитию страны путем использования экономико-географических возможностей освобожденных от оккупации территорий, обеспечение деятельности сельскохозяйственных и перерабатывающих предприятий, а также производство промышленной продукции.

**Результаты исследования** - способствовать экономическому развитию страны и региона путем создания агропромышленных парков на территориях, освобожденных от оккупации и обеспечить занятость населения в этих районах.

**Оригинальность и научная новизна исследования** - заключается в достижении синтеза финансово-экономической деятельности промышленных и аграрных зон на основе экономико-географического единства сельскохозяйственных и перерабатывающих предприятий и формировании в результате этого синтеза новой системы управления.

**Ключевые слова**: оккупация, территория, отрасль, парк, переработка, управление, экономический район, сельское хозяйство.

*Məqalə redaksiyaya daxil olmuşdur: 03.07.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 05.08.2024*
*Çapa qəbul olunmuşdur: 29.08.2024*

*Дата поступления статьи в редакцию: 03.07.2024*
*Отправлено на повторную обработку: 05.08.2024*
*Принято к печати: 29.08.2024*

*The date of the admission of the article to the editorial office: 03.07.2024*
*Send for reprocessing: 05.08.2024*
*Accepted for publication: 29.08.2024*